Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası



Seyfəddin Dağlının 95-illik yubileyi
münasibəti ilə hazırlanmış metodik vəsait

***Ustad və cəsarətli sənətkar- Seyfəddin Dağlı.***

Bakı -2016

Tərtibçi: Aynurə Əliyeva
Sevil Əhmədova

Redaktor: Şəhla Qəmbərova
Əməkdar Mədəniyyət işçisi

“Ustad və cəsarətli sənətkar- Seyfəddin Dağlı”. Seyfəddin Dağlının 95-illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait / tərt.ed. A.Əliyeva; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 22 s.

**(C)F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016**

Tərtibçi.

Elə sənətkarlar olur ki, bir zaman büllur ayna kimi parlamış əsərləri zaman keçdikcə əvvəlki parlaqlığını itirir, zaman onların üstünü örtür. Lakin bəzi yazarlar da vardır ki, illər qərinələr, əsrlər keçsə belə həmişəyaşar olaraq qəlbimizə həkk olunur... Dahilər haqqında ürək sözü söyləmək həm çətin, həm də məsuliyyətlidir. Xüsusən biləndə ki, deyəcəyin söz bir böyük insan, istedadlı bir yazıçı haqqındadır, həyəcanın daha da artır. Belə sənət-söz ustadlarından biri də Seyfəddin Dağlıdır. Azərbaycan ədəbiyyatının, mətbuatının inkişafında özünəməxsus xüsusi yeri olan görkəmli naşir, publisist, dramaturq, tərcüməçi, yumoristik novellalar, hekayələr müəllifi Seyfəddin Dağlının anadan olmasının 95 ili tamam olur. Ötən əsrin 60-70-ci illərindən başlayaraq Seyfəddin Dağlının qələmindən hər bir yazı həm ədəbi içtimaiyyət, həm də oxucular tərəfindən maraqla qarşılanardı. Yazıçının əsərləri sevilə- sevilə oxunardı. Özünəməxsus yaradıcılıq üslubu, dadlı-duzlu, yumorlu dili onu həmkarlarından fərqləndirirdi. Həyat həqiqətlərinə sadiqlik onun əsərlərinə əsl işıq gətirmişdi. Hər bir yazıçının ədəbi aləmə gətirdiyi müəyyən yenilik olur. Seyfəddin Dağlı son dərəcə zəhmətkeş bir yazıçı idi. O, sözün üstündə cəfakeşliklə çalışar, hər kəlmə, ifadə uğrunda məsuliyyət hissi keçirərdi. Cəmi 62 il yaşasa da, Seyfəddin Dağlı

mənalı ömür yaşadı. Həm insan, həm yazıçı kimi, həm həyat yoldaşı, həm ata, həm də dost kimi... Zaman Seyfəddin Dağlıya  qarşı haqsızlıq etdi həqiqətən. O, yaradıcılığının çiçəkləndiyi, fəlsəfiləşdiyi bir dövrdə ölüm karvanına qoşularaq vaxtsız əbədiyyətə qovuşdu...

Yazıçının 95-illik yubileyi münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə "Ədəbi-bədii, satirik-yumoristik qələmi, şəxsi-içtimai aləmi ilə xalqa bağlı- Seyfəddin Dağlı" adlanır və S.Dağlının həyat və yaradıcılığından bəhs edir. II hissədə isə Seyfəddin Dağlının yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Həyat və yaradıcılığı

*Əsərlərində yaşayan ədib*

Seyfəddin Dağlı ( Seyfəddin Əliağa oğlu Abbasov) 1921-ci ilin avqustun 27-də Xızıda dünyaya göz açmışdır. O, 13-günlük olanda anası Qəmər vəfat edib. Kənddə hansı qadının balaca uşağı varmışsa, körpəni aparırmışlar onun yanına ki, süd versin. Seyfəddinin atası Əlağa Abbasov dövlət qulluqçusu olub, müxtəlif rayonlara işləməyə göndərilib. Elə buna görə də uşaq ata-babası Bəhlul kişinin ümidinə qalıb. Bir müddət sonra Seyfəddinin atası ailə qurub. Balaca Seyfəddini yenə əvvəlki kimi babası saxlayıb. Bəhlul kişi savadsız adam idi. Amma xeyirxah, əliaçıq, səxavətli olmasıyla özünə hörmət qazanmışdı.

Seyfəddin hələ kiçik ikən ailəsi ilə birgə Bakıya köçüb. Orta məktəbi də elə bu şəhərdə oxuyub. Seyfəddin gözünü açıb babasını görmüşdü. Ona həddindən artıq bağlanmışdı. Ancaq taleyi babasını da ona çox gördü. Seyfəddin uşaq ikən Bəhlul kişi dünyasını dəyişdi. O, atasıgillə yaşamağa başladı. Atasının ikinci evlilikdən beş uşağı dünyaya gəlmişdi: iki oğlan, üç qız. Analığı Seyfəddinlə pis rəftar etmirdi. Amma hər halda, heç kim doğma ananın yerini verə bilmir. İlk əmək fəaliyyətinə hələ tələbə ikən "Kommunist" və "Ordu" qəzetlərində müxtəlif vəzifələrdə işləyərək başlayıb. Dövlət Radio Komitəsində baş redaktor (1956-1959), sonra Bakı Telestudiyasının direktoru və sədr müavini vəzifələrində çalışıb. Uzun müddət "Kirpi" jurnalının baş redaktoru, "Azərbaycanfilm" kinostudiyasında ssenari redkollegiyasının üzvü, "Yazıçı" nəşriyyatında redaktor işləyib. 1948-ci ildə "Dəniz kəşfiyyatçısı"adlı ilk kitabı nəşr edilib. "Adı sənin, dadı mənim", "Aydınlığa doğru", "Mənziliniz mübarək" , "Təzə gəlin", "Kölgələr pıçıldaşır" pyesləri, "Bahar oğlu", "Məşəl", "Kəcil qapısı", "Sabiqlər" və s. kitabları ilə geniş oxucu kütləsinin rəğbətini qazanıb. Pyesləri Akademik Dram Teatrı, Gənc tamaşaçılar teatrında dəfələrlə tamaşaya qoyulub. Yazıçı Seyfəddin Dağlı 1983-cü il yanvarın 18-də dünyasını dəyişib.

Filmoqrafiya.

1. Onun bəlalı sevgisi (film, 1980)
2. Qayınana (film, 1978)

3. Adı sənin, dadı mənim (film, 1980) (tammetrajlı televiziya tamaşası) (Aztv)
4. Gecəniz xeyrə qalsın (film, 1977)
5. Kommunist (film, 1969)
6. Solmaz bir bahar kimi (film, 1979)

Dəyərli yazar Seyfəddin Dağlının 95-illik yubileyi ilə əlaqədar kitabxanada kitab sərgisi keçirilməsi məqsədəuyğundur. Sərgiyə müxtəlif başlıqlar verilə bilər. Bunlardan "İstedadlı yazıçı-Seyfəddin Dağlı", "Şirin və duzlu qələm sahibi- Seyfəddin Dağlı", "Ustad və cəsarətli sənətkar", "Babam söz verib ki, sabah gələcək", "Xalqa bağlı yazıçı", "Özünəməxsusluğu ilə seçilən insan-Seyfəddin Dağlı" "Faciədən doğan qəhqəhə" və s. misal göstərmək olar. Bununla yanaşı ədibin müxtəlif illərdə çəkilmiş foto stendi, yazıçının kitabları sərgidə öz yerini alır. Yazıçının öz əsərləri ilə yanaşı, müxtəlif ədiblərin onun haqqında yazdığı materiallar, yazıçı haqqında söylədikləri kəlamlar və şeir parçaları da sərgidə nümayiş olunur.

















**Görkəmli şəxsiyyətlərin yazıçı haqqında söylədikləri:**

Ötən əsrin ortalarında yandırdığı "Məşəl" in odu elə sönməz oldu ki, onun hər parçasından qopan qığılcım bu yazıçını sevən oxucuların qəlbinə nur kimi axdı.

Flora Xəilzadə,
*Əməkdar mədəniyyət işçisi.*

Dünyamız sözün həqiqi mənasında gözəl bir insanı itirdi.

Cabir Novruz,
*Xalq şairi.*

Seyfəddin Dağlı təxəllüscə “Dağlı olan” bu ədib mahiyyətcə hər yerli idi.

Tahir Abbaslı,
*Azərbaycan İslam Demokrat Partiyasının sədri.*

Seyfəddin Dağlı hələ öz sağlığında onu tanıyanların qəlbində özünə abidə ucaldıb.

Ədalət Mehdiyev,
*Jurnalist.*

Kitabxanada Seyfəddin Dağlının kitablarından ibarət sərgi təşkil olunur. Kitabxanaçı sərginin ətrafında oxucularla söhbət keçirir. Söhbət zamanı kitabxanaçı yazıçının özü və kitabları haqqında oxuculara məlumat verir.

*Kitabxanaçı:* Müasir Azərbaycan nəsrinin sevilən imzalarından biri-Seyfəddin Dağlı haqqında danışmaq bədii sözün sirlərinə bələdlik və zehni intelektuallıq tələb edir. Ədəbiyyatımıza bir sıra dəyərli dram əsərləri, romanlar, povestlər, çoxlu sayda hekayə, yumoristik novellalar və tərcümələr bəxş etmiş yazıçının bədii dünyası zənginliyi və təkrarsızlığı ilə diqqəti çəkib. Onun əsərlərində hər şey canlı təsir bağışlayır, inandırıcı görünür, insanı sehrinə salır, ovsunlayır, gülüş doğurur. Sözün dəyərini və çəkisini bildiyi üçün o, gərəksiz yerə yazmır, yazdıqlarının arxasında bəlli bir məram və niyyət durur. Bütün zamanlarda, istisnasız olaraq, yazıçının bədii qüdrəti ilə yanaşı, onun şəxsiyyəti, kimliyi, mövqeyi maraq doğurub, mübahisə obyektinə çevrilib. İnanırıq ki, daima, qərinələr ötsə belə onun əsərləri geniş oxucu

kütləsinin diqqət və marağını çəkəcək, dəyişən, yeniləşən zamanla birlikdə təzəliyini, təravətini qoruyub saxlayacaqdır...

Tanınmış yazıçı Seyfəddin Dağlı ( Abbasov) ədəbi fəaliyyətə hələ tələbə ikən otuzuncu illərin sonlarında oçerk və felyetonlarla başlamışdır. Böyük vətən müharibəsi illərində orduya çağrılmış, həm də hitlerçilər əleyhinə felyetonlar və satirik hekayələrlə çıxış etmişdir. Sovet Ordusu sıralarında İranda olarkən Cənubi Azərbaycan mövzusunda yazdığı hekayələrini sonralar Bakıda “Məşəl” kitabında (1950-ci il) nəşr etdirmişdir. Daha sonra yazdığı satirik əsərlər “Hekayələr” (1956), “Sabiqlər” (1960), “Göyçək oğlan” (1965) kitablarında toplanmışdır. Oxuculara təqdim olunan kitaba daxil edilmiş *“Vergülağa Nöqtələrov”*, 1956-cı ildə “Azərbaycan” jurnalında, “Absətələni avsayt öldürdü” povesti isə 1965-ci ildə “Bakı” axşam qəzetində dərc olunmuşdur. Bu əsərlərdən birincisi “Karyera Noqtalorova” adı ilə Moskvada “Sovetsi pisatel” nəşriyyatında rus dilində nəşr edilmişdir. Həmin ildə “Pravda” nəşriyyatında “Biblioteka Krokodila” seriyasından yazıçının hekayə və felyetonları da kütləvi tirajla rus dilində ayrıca kitabça şəklində buraxılmışdır. S.Dağlı qeyri-satirik əsərlər də yazır ki, bunlardan böyük azəri dramaturqu Cəfər Cabbarlıya həsr olunmuş “Bahar oğlu” və Cənubi Azərbaycan qadınlarının ağır həyatından bəhs edən “Gəcil qapısı” romanlarıdır. Dramaturgiya sahəsində də qələmini sınayan S.Dağlının “Aydınlığa doğru”

dramı və “Adı sənin, dadı mənim” satirik komediyası tamaşaya qoyulmuşdur. “*İpək və gül”* (1971) kitabı hekayələr toplusudur. Kitab satirik, eyni zamanda tərbiyəvi xarakter daşıyır. Seyfəddin Dağlının digər kitabında “*Yaylaq qayğıları”* (1974) roman-felyetonu ilə bərabər yazıçının son illərdə yazdığı yeni hekayələri də toplanmışdır. Əsərlərin bir qismində müasirliyimizin yüksək əxlaqi keyfiyyətləri, yaxşı adamların yaxşı əməlləri qələmə alınmış, digər qismində-xüsusən satirik hekayələrdə isə cəmiyyətimizə yad ünsürlərin eybəcər sifətləri tənqid və gülüş hədəfinə çevrilmişdir. 1971-ci ildə nəşr edilmiş *“Aldada bilməzsən”* kitabından sonra 1988-ci ildə *“Şirin duz”* kitabı işıq üzü görmüşdür. Kitabda eyni adlı roman geniş oxucu kütləsinin məhəbbətini qazanmış mərhum yazıçımız Seyfəddin Dağlının son əsəridir. Müəllif əsəri ölümündən bir qədər əvvəl başa çatdırmışdır. Roman Böyük Vətən Müharibəsindən sonra zəhmət meydanında gedən gərgin mübarizə, Muğan düzünün şoran torpaqlarının yararlı hala salınması, insanların həyat tərzində, daxili aləmində baş verən dəyişikliklərə, yeni həyat uğrunda mübarizəyə həsr olunmuşdur. Seyfəddin Dağlıninn 1981-ci ildə nəşr olunmuş “*Mənziliniz mübarək*” kitabı povestlər, pyes və hekayələr toplusudur. Yazıçı-dramaturq Seyfəddin Dağlı satirik, yumorlu, duzlu hekayətləri, eləcə də teatrlarımızda tamaşaya qoyulan komediyaları ilə oxucu və tamaşaçılara yaxşı tanışdır. Onun bu kitabında müasir həyatımızı əks etdirən pyesləri, şahlıq rejimi dövründə İran xalqının məşəqqətli

həyatının və son illərdə coşan milli-azadlıq hərəkatının təsvirini verən nəsr əsərləri toplanmışdır. Əsərləri sevilə-sevilə oxunan görkəmli yazıçı-dramaturq Seyfəddin Dağlının "Məşəl yanır" kitabında Arazın o tayındakı qardaş və bacılarımızın ağır həyatını, mübarizə yolunu əks etdirən hekayələri, "Türkiyə novellaları", "Absətəli avsaytdadır" yumoristik povesti və "Gəcil qapısı" romanı daxildir. Seyfəddin Dağlının özünəməxsus yaradıcılıq üslubu, yadda qalan canlı obrazları, dadlı-duzlu yumoru, dilinin saflığı və səlisliyi onun əsərlərini fərqləndirən əsas keyfiyətlərdir. Görkəmli yazıçı Seyfəddin Dağlının 1991-ci ildə nəşr edilmiş "Seçilmiş əsərləri" oxucular tərəfindən rəğbətlə qarşılanmış kitablarındandır. Kitabda onun satirik və yumoristik əsərlərindən nümunələr böyük sənətkarımız Cəfər Cabbarlının ömür yolunu əks etdirən "Bahar oğlu" romanı daxil edilmişdir.

Yazıçını və onun əsərlərini oxuculara tanıtmaq məqsədilə kitabxanada bir sıra tədbirlər keçirmək olar. Bu məqsədlə kitabxanaçı bir neçə məktəblə sıx əməkdaşlıq edir. O şagirdləri, xüsusən də, yuxarı sinif şagirdlərini kitabxanaya cəlb etməklə S.Dağlının əsərləri ilə tanış edir. Kitabxanaya abunə olan şagirdlər Seyfəddin Dağlının müxtəlif adda əsərlərini oxuyub, onun yaradıcılığı ilə yaxından tanış olurlar. Daha sonra kitabxanaçı kitabxanada bir sıra tədbirlər üçün müəyyən olunmuş tarixdə oxucuları kitabxanaya dəvət edir. Bu vaxt ərzində kitabxanaçı yuxarı sinif şagirdləri ilə Seyfəddin Dağlının bir sıra hekayələrini

səhnələşdirə bilər. Məsələn: S.Dağlının sevilən əsərlərindən biri olan *“Bərbərin səyi, müştərinin dərdi” və “Doğurdanmı”* adlı hekayələri əsasında hazırlanmış səhnəciyi sizlərə təqdim edirik.

*İlk öncə səhnə əsərlərə uyğun olaraq dekorasiya edilir. İştirakçılar canlandırdıqları obrazların paltarlarına uyğun geyinirlər. İlk əvvəl “Bərbərin səyi, müştərinin dərdi” hekayəsi səhnələşdirilir. Səhnədə bərbərxana və burada çalışan bərbərlə müştəri görünməyə başlayır. Aparıcı səhnəyə yaxınlaşaraq sözə başlayır:*

*Aparıcı:* Bərbər səylə müştərinin saçını vurub başını düzəltdi. Qarşılarındakı böyük güzgüyə baxdı və orada əks olunmuş sir-sifətin əhval-ruhiyyəsindən dərhal anladı ki, müştəri onun işindən xeyli razıdır. Usta da özündən razı halda miz üzərindən götürdüyü balaca güzgünü müştərinin başının arxa hissəsinə tutaraq boynunun arxa hissəsini ona göstərdi. Birdən qarşı güzgüdən sir-sifət turşudu, qaşqabaq sallandı. Müştəri kəskin hərəkətlə ayağa qalxdı, yaxasındakı ağ dəsmalı sinəsindən qoparıb kürsüyə çırpdı. Bərbər təəccüb içində soruşdu:

*Bərbər:* - nə olub, əzizim? Məgər boynunuzun arxasını yaxşı düzəltməmişəm?

*Aparıcı:* Müştəri onu çəp-çəp süzüb fısıldadı:

*Müştəri:* -Məgər səndən xahiş elədim ki, başımın arxasını mənə göstərəsən.

*Bərbər:* -Dedim bəlkə bir əyər-əskiyi var, görüb deyəsiniz düzəldim.

*Aparıcı:* Müştəri sağ əlini yuxarı qaldırdı, şəhadət barmağını açıb əsəbiliklə təpəsinə vurdu. Səsini lap ucaltdı:

*Müştəri:*-Hə, buyur düzəlt bunu görüm necə düzəldirsən!..

*Aparıcı:* Bərbər yalnız indi fərqinə vardı ki, illərdən bəri saçını düzəltdiyi tanış başın ortasında ona tanış olmayan təptəzə bir daz peyda olubdur. Heç şübhəsiz, müştəri də öz dazını ilk dəfə indi görürdü və elə onun kefini pozan da bu daz idi. Bərbərin darağı dərhal dazın üstünü aldı:

*Bərbər:* Bu saat üzərini örtərəm.

*Aparıcı:* Müştəri dərindən ah çəkdi:

*Müştəri:* -Daha gördüm də... Ürəyimə xal salandan sonra nəyi gizlədəcəksən?!

*Daha sonra tamaşaçılar ikinci səhnəciyə, baxmağa başlayırlar. "Doğurdanmı" adlı səhnəciyin səhnə dekarasiyası hazır edildikdən sonra aparıcı səhnəyə yaxınlaşır.*

*Aparıcı:* Yazıçı kiçik bir yumoristik hekayə yazıb redaksiyaya təqdim etdi. Bir aydan sonra o, məsul katibdən belə bir cavab aldı:

*Məsul katib:* -Təəssüf ki, hekayəniz məsul redaktorumuzun xoşuna gəlmədi. O buyurdu ki, hekayə gülməli deyil və ümumiyyətlə qəzet üçün yaramaz.

*Aparıcı:* Bir müddətdən sonra, həmin məsul redaktor "sabiq" oldu. Daha bir neçə gün sonra köhnə tanışlar rastlaşdılar. Sabiq məsul redaktor uzaqdan hırıldayaraq, əlini yumoristə uzatdı:

*Redaktor:* -Təbrik edirəm!-dedi.- Bilsəniz, sizin təzə hekayənizi mənim köhnə qəzetimdə oxuyarkən nə qədər gülmüşəm, həm də təkcə mən yox. Bütün evdəkilər qəzeti oxuyub xorla qəhqəhə cəkdilər. Afərin!-Bir an sükutdan sonra səsinə ciddi ahəng verərək əlavə etdi:-Heyif ki, mən redaktor olanda belələrini yazmırdınız.

*Aparıcı:* Yumoristin gözləri hədəqəsindən çıxdı:

*Yumorist:* -Bu elə həmin hekayədir ki, siz geri qaytarmışdınız. Heç özüm də bilmirəm, təzə redaktor onu haradan axtarıb tapıb.

*Aparıcı:* Sabiq redaktorun siması dəyişdi, dodaqlarının ucu əyildi:

*Sabiq redaktor:* - Doğurdanmı?.. –deyə əsəbi halda fısıldadı.-Ancaq... Bəs, vaxtı ilə geri qaytarılmış bir hekayəni indi çapa verməyə necə cəsarət eləyiblər?!

Görkəmli yazar Seyfəddin Dağlının 95 -illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də, *“Aydınlığa doğru”* adlı ədəbi bədii gecədir. Gecəyə Azərbaycanın görkəmli ədib və yazarları;sənət-söz adamları, oxucular, məktəblilər və ümumilikdə Seyfəddin Dağlısevərlər toplaşır. Qonaqlar ədibin şəkilləri, müxtəlif adda əsər başlıqları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Ədəbi-bədii gecəyə keçid almaq üçün aparıcılar səhnəyə yaxınlaşır.

*I aparıcı:* Salam, dəyərli qonaqlar, mütaliyə sevər oxucular, bu gözəl gülüş dolu, düşüncə dolu tədbirə xoş gəlmisiniz. Bu gün hamımız Seyfəddin Dağlının 95-illik yubileyi münasibətilə buraya yığışmışıq. Onun

keçdiyi yarpaq-yarpaq yaradıcılıq, məna dolu ömür yoluna, dünyasına işıq salmaq üçün yazarın bu sözlü, sətirli, gülüş dolu gecəsinə toplanmışıq. Seyfəddin Dağlı əsl yazardır. O, ahəngini Azərbaycanın dahi ədiblərinin ahəngindən götürmüş bir şəxsiyyətdir.

*II aparıcı:* Seyfəddin Dağlı bizim XX əsr ədəbiyyatımızda bir məktəbdir. Amma bu məktəbin özünün də məxsus olduğu daha böyük müqəddəs məktəbi var. Seyfəddin Dağlı elə sənətkarlardandır ki, onların həyat yolu yaradıcılıq yolu qədər, yaradıcılıq yolu isə həyat yolu qədər maraqlı və zəngin olur. Yaradıcılığa əslində şeirlə başlayan Seyfəddin Dağlı məşhur şair olmasa da, duzlu-məzəli misralar yazmışdır. Hətta ustad bəstəkarımız Cahangir Cahangirov onun neçə-neçə şeirinə musiqi bəstələmişdir. Amma Seyfəddin Dağlı ədəbi aləmdə satirik hekayələr ustadı, gözəl felyetonçu və publisist kimi qəbul olunurdu.

I aparıcı: Dramaturgiya sahəsində də qələmini sınayan müəllifin bir neçə pyesi teatrlarda tamaşaya qoyulmuşdu. Uzun müddət repertuardan düşməmiş, televiziya kanallarında maraqla izlənmişdi. 1956-1959-cu illərdə Dövlət radio komitəsində baş redaktor, sonra “Bakı” telestudiyasının direktoru və sədr müavini işləmişdir. Seyfəddin Dağlı uzun müddət “Kirpi” siyasi-satira jurnalının baş redaktoru olmuşdur.1980-cı ilin mayından ömrünün sonunadək “Yazıçı” nəşriyyatında redaktor işləmişdir. Seyfəddin Dağlı 1983-cü ildə dünyasını dəyişmişdir.

*I aparıcı:* Onun ilk kitabının adı “Məşəl” idi. Hər dəfə bu əsəri yenidən oxuyanda müəllifin cəsarətinə, vətəndaşlıq qayəsinə, qətiyyətinə, ana dilimiz uğrunda apardığı mübarizəyə heyrət etməyə bilmirsən. 1937-ci ilin ağır xofunun ovqatlardan çəkinmədiyi bir məqamda-1948-ci ildə Seyfəddin Dağlı qələmə aldığı hekayəsində yazırdı:

*(Aparıcılar səhnədən ayrılır, əsərə uyğun səhnə bəzədilir. Üç oxucu iştiraskçı qismində səhnəyə yaxınlaşıb əsərdəki obrazları canlandırırlar).*

*I oxucu:* -Siz buyurduğunuz şairlərin dili uşaqlar üçün qəlizdir, bu tifillər onları başa düşmürlər, cənab müfəttiş, bunlara anlayacaqları dildə kiçik, sadə şeirlər gərəkdir.

*II oxucu:* -Hansı dildə dedin?

*I oxucu:* -Vətən dilində.

*II oxucu*: -Yəni...

*I oxucu: -*Ana dilində. Azərbaycan dilində...

*III oxucu:* Bu sözləri eşitcək müfəttiş qəzəbli gözlərini geniş açdı, sürətli nəzərlərini dolandırıb vəhşi baxışlarla sinfi-uşaqları, küsürləri, masanı süzməyə başladı. Elə bil Azərbaycan daş-torpağından tikilmiş bu otağı bir ləhzədə uçurub yer ilə yeksan etmək istəyirdi. Müfəttişin bu baxışları birdən müəllimin masası üstündəki kitaba zilləndi. O, quduz hərəkətlə kitabı qamarladı, burnunun ucuna qədər aparıb bərkdən bağırdı.

*II oxucu:* - “Vətən dili” Olmaya sən bu dili deyirsən, gədə?!

*III oxucu:* Müəllim zorla hirsini boğub təmkinlə səsləndi:
*II oxucu:* -Bəli, cənab, həmin dili...
*I oxucu:*-Bəs onda, ala! Bu sənin dilin, bu da kitabın, şeirin!.. Pədər süxtə!..
*III oxucu:* Müfəttiş bir anda əvvəl kitabı cırıb ayaqlar altına atdı, sonra da tələsik əski parçasını qapıb lövhəni silməyə başladı...
*II aparıcı:* Seyfəddin Dağlı bu hekayəsində baş verən hadisələri özündən uydurmamışdı. O, ordu sıralarında xidmət edərkən Təbrizdə olmuş, şagirdlərin gözü qabağında kitablardan çatılmış tonqalları öz gözləri ilə görmüş, azərbaycanlı müəllimlərinin faciəli taleyini qələmə almışdır. Müəllifin yaradıcılığını tədqiq edərkən iki hal diqqəti cəlb edir: Seyfəddin Dağlı Arazın o tayındakı soydaşlarımızın taleyi ilə bağlı müntəzəm əsərlər yazmış, bacı-qardaşlarımızın cətin güzəranı onu heç zaman rahat bvuraxmamışdır. "Kəcil qapısı" romanı da məhz Cənubi Azərbaycan həyatına həsr edilmişdir.
*I aparıcı:* Olduqca həssas, dərin yazıçı müşahidəsinə malik olan Seyfəddin Dağlı öz satirik hekayələrində kimlərə gülürdü? İlk növbədə fırıldaqçılara, hiyləgərlərə, rüşvətxorlara. Onun tənqid hədəfləri öz müasirləri idi. Bir müəllif kimi satirik hekayələrində çox aydın, sadə bir dillə və məharətlə mənfi tipləri gülüş hədəfinə çevirərək onları bu yolla islah etməyə calışırdı. Seyfəddin Dağlı *"Rüşvətdar"* adlı hekayəsində sadəcə gülməli vəziyyətdə təqdim etmir, həm də onun

vəziyyətinə bir növ ağlayır. Əli rüşvət verməyə alışmış bu tipin ailəsi çox acınacaqlı vəziyyətdə yaşayır.

*II aparıcı:* Seyfəddin Dağlı dramaturq kimi də yazıb-yaratmışdır. Müəllifin "Adı sənin, dadı mənim", "Aydınlığa doğru", "Mənziliniz mübarək", "Təzə gəlin", "Kölgələr pıçıldaşır", və başqa dramları respublikamızın başqa teatrlarında tamaşaya qoyulmuşdu. 1979-cu ildə onun ssenarisi əsasında "Bahar kimi solmaz" filmi də çəkilmişdi. Çoxcəhətli yaradıcılığı ilə seçilən Seyfəddin Dağlı müntəzəm surətdə xarici ölkə ədəbiyyatının nümunələrini dilimizə çevirirdi. Digər bir tərəfdə isə onun öz əsərləri müxtəlif dillərə tərcümə edilirdi. Onu keçmiş sovetlər ittifaqının bütün müttəfik respublikalarında yaxşı tanıyırdılar və əsərlərini sevə-sevə oxuyurdular.

*I aparıcı:* Seyfəddin Dağlı sağ olsaydı, bu gün onun qələmə aldığı mövzular daha rəngarəng, daha maraqlı səslənərdi. Sovet hökumətinin ağır təzyiqlərinin və məhdudiyyətlərinin hökm sürdüyü bu dövrdə quruluşun diktəsindən doğan nöqsanlara gülmək, qüsurları dilə gətirmək, ziddiyyətli həyat tərzini təsvir etmək yazıçıdan böyük cəsarət, qətiyyət tələb edirdi. Seyfəddin Dağlı sözün həqiqi mənasında ustad və hünərli sənətkar idi. O, sözünü elə məqamda, elə tərzdə məharətlə deməyi bacarırdı ki, hətta ondan narazı qalan da ciddi şəkildə öz etirazını bildirməyə çəkinərdi.

*I aparıcı:* Yazıçı bu fəaliyyətini "Kirpi" jurnalında da çox məharətlə davam etdirmişdir. Onun redaktorluğu ilə nəşr olunan bu satirik jurnalın səhifələrində elə qəm

dolu gülüş, qəhqəhəli faciə notları tapmaq olur ki, bir daha bu böyük sənətkarın yazıçılıq, jurnalistik qüdrətinə məftun kəsilirsən. Seyfəddin Dağlı novella ustası, böyük türk satiriki Əziz Nesinlə uzun müddət dostluq etmişdir. Dəfələrlə hər iki ölkədə görüşdən sonra onların dostluğu daha da möhkəmlənmişdi. Bütün söhbətlərində Əziz Nesin bildirirdi ki, məni Azərbaycana çəkən, ona vurğun edən Seyfəddin bəy olub... Əziz Nesin türk ədəbiyyatı üçün hansı xidmətlərin sahibidirsə, Seyfəddin Dağlı da Azərbaycan ədəbiyyatında həmin statusa malik görkəmli yazıçıdır.

*II aparıcı:* Seyfəddin Dağlı ömrü boyu sadə, təvazökar olub. İşi, peşəsi isə ancaq yazmaq, yaratmaq olub. O, nə hansısa təltifi gözləyib, nə də mükafat barədə düşünüb. Yazıçının ən böyük mükafatı xalqı tərəfindən sevilməyidir. Məzmunlu və dəyərli əsərləri ilə Azərbaycan ədəbiyyatında əbədi yer tutmuş Seyfəddin müəllim gözəl yaşadı, heç kimə əziyyət vermədən gözünü yumdu, xəyal oldu, həqiqət adlı bir nağıla çevrildi. Seyfəddin Dağlını tanıyanların xatirələrində onun işıqlı obrazı belə boylanır. “Qələm tutan barmaqları düyün-düyün idi. İllər boyu bu düyünlü barmaqları müşahidə etmişdim və onlara həsəd aparmışdım. Bu düyünlər üç günün, beş günün deyildi. Əlinə qələm aldığı vaxtdan qabarlanıb düyünə dönmüşdü o barmaqlar... Vərəqlər onun tarlası, qələm xışı, kotanı idi” (Ağasəfa). Buna görə də səpdiyi toxumlar göyərirdi...

*I aparıcı:* Ötən əsrin ortalarında yazıçının qələminin odu elə sönməz oldu ki, onun hər parçasından qopan qığılcım bu yazıçını sevən oxucuların qəlbinə nur kimi axdı. Bir vaxt bu dünyada var olmuş Seyfəddin Dağlını unudulmağa qoymadı. Əslində, bu işıq payı unudulmaz yazıçının Vətənə, torpağa, millətə bağlı ürəyinin sevdiyi insanlara əbədi ərməğanı oldu.
*II aparıcı:* Seyfəddin Dağlı çox az yaşadı, ömrünü başa vurduqdan sonra xəyal oldu, həqiqət adlı bir nağıla çevrildi. Lakin bu gündən onun ikinci ömrü başladı. Daha uzun ömrü... Sənətkar ömrü, bizim ürəyimizi köz-köz yandıran xatirə ömrü, dost ömrü, həqiqi insanlıq ömrü...

*I aparıcı:*

Birdən qəm gətirdi familin, adın,
Bizi tərk elədin, bizi nədəndir?
Sən öləndən sonra yaxşı olmadın,
Sən elə sağ ikən yaxşı adamdın.
Yaxşı xırda sözdür sənin yanında,
Böyükdün, billurdun məhəbbətinlə.
Səhfsiz adam olmur guya cahanda,
Amma sən səhfsizdin öz xilqətinlə.
Sən bizim mötəbər ustadımızdın,
Gülüşlü, məzəli həyatımızdın.
Daha heç bir zaman dinməyəcəksən,
Şirin xatirəsən daha bu gündən,
Bilirik: geriyə dönməyəcəksən!
Axı kim dönüb ki, dönəsən sən də...

Cabir Novruz

## Əsərləri

### Latin qrafikası ilə

Adı sənin, dadı mənim // Azərbaycan dramaturgiyası antologiyası. 4 cilddə. - B. : Şərq-Qərb, 2007. - C.2. - S. 338-388.
Bahar oğlu... Novruza yetişmədi... : yazıçı, publisist Cəfər Cabbarlı haqqında // Qobustan. - **№ 1**. - S. 19-21.

### Kiril qrafikası ilə

Aldada bilməzsən : hekayələr və povestlər. - Bakı : Azərnəşr, 1977. - 296 s.
Bahar oğlu : roman. - Bakı : Gənclik, 1971. - 295 s.
Hekayələr və roman. - Bakı : Azərnəşr, 1992. - 384 s.
İpək gül : Hekayələr, novellalar və yumoreska. - Bakı : Azərnəşr, 1971. – 178 s.
Mənziliniz mübarək : pyeslər, povest və hekayələr. - Bakı : Yazıçı, 1981. - 279 s.
Məşəl yanır : hekayələr, povest və poman. - Bakı : Yazıçı, 1985. - 360, [1] s.
Şəkərlilər : povest və hekayələr. - Bakı : Gənclik, 1978. - 176 s. -
Şirin duz : roman. - Bakı : Azərnəşr, 1988. - 214, [2] s
Vergülağa və Absətəli : roman və povest. - Bakı : Azərnəşr, 1966. - 291 s.
Yaylaq qayğıları : roman-felyeton və hekayələr. - Bakı : Gənclik, 1974. - 192s.

**HAQQINDA**

Abbaslı T. Seyfəddin Dağlı // Mədəniyyət. - 2013. - 16 yanvar. - № 3. - S. 13.
Abbaslı T. Əbədi "Köhnə Kişi" : ədəbi-bədii, satirik-yumoristik qələmi,şəxsi-ictimai aləmilə xalqa bağlı - Seyfəddin Dağlı... // Mədəniyyət. - 2015. - 26 avqust. - № 64. - S. 15.
Ənvəroğlu. Cabbarlıya vurğun adam : Seyfəddin Dağlının Cəfər Cabbarlı haqqında düşüncələri // Qobustan. - 2014. - № 1. - S. 19.
Hacızadə N. Yaddaşımda yaşayan Seyfəddin Dağlı // Yada düşdü. - B. : Araz, 2008. - S. 296-311.
Hacızadə N. Yaxşılıq üçün yaranmışdı : Seyfəddin Dağlı - 90 // Yada düşdü. - 2012. - № 2. - S. 12-18.
Xəlilzadə F. Ustad və cəsarətli sənətkar : Seyfəddin Dağlı - 90 // Azərbaycan. - 2011. - 23 avqust. - № 185. - S. 5.
Xəlilzadə F. Düyünlənmiş barmaqlar : yazıçı Seyfəddin Dağlı haqqında // Kaspi. - 2013. - 4-6 may. - № 79. - S. 16.
Vahid T. Şirin və duzlu qələm sahibi : Seyfəddin Dağlı - 90 // Mədəniyyət. - 2011. - 26. 08. - № 63. - S. 7.

“Ustad və cəsarətli sənətkar- Seyfəddin Dağlı”.
Seyfəddin Dağlının 95-illik yubileyi münasibəti ilə hazırlanmış metodik vəsait

Kompyuter yığımı və dizayn: Aynurə Əliyeva

Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;
E-mail: childlibbaku@yahoo.com

URL:www.clb.az

F.Köçərli adına Respublika

Uşaq Kitabxanasında

çap olunmuşdur.

Sifariş:

Çapa imzalanmışdır:

Tirajı:

Pulsuz